2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlkin Şahbazovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 8 fevral 2025-ci il tarixli 41 saylı müraciəti üzrə

**RƏYİ**

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 81 saylı İmişli seçki dairəsində Imişli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd İsmayılov Mehman Qadir oğlu 8 fevral 2025-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 7 fevral 2025-ci il tarixli 13/46 saylı Qərarını mübahisələndirərək, seçki dairəsinin İmişli bələdiyyəsi üzrə seçki məntəqələrində səsvermənin nəticələrinin etibarsız hesab olunmasını və bu barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü İlkin Şahbazov həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

81 saylı İmişli seçki dairəsində İmişli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd M.Q.İsmayılov müraciətində səsvermə günü həmin seçki dairəsi dairə seçki komissiyasının İmişli bələdiyyəsinə seçki keçirilən seçki məntəqələri üzrə səsvermənin saxtalaşdırıldığını, həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini tələb etmişdir.

Araşdırma ilə bağlı müraciət etmiş namizədlərlə əlaqə saxlanılıb, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

İddia edilən pozuntularla əlaqədar qeydə alınmış namizədin şikayəti 81 saylı İmişli seçki dairəsinin dairə seçki komissiyası tərəfindən araşdırılmış, dairə seçki komissiyasının 7 fevral 2025-ci il tarixli 13/46 saylı qərarı ilə müraciət əsassız hesab olunaraq təmin edilməmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq icraat materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır. Lakin o, araşdırmada və Komissiyanın iclasında iştirak etməkdən imtina etmişdir.

Mərkəzi Seçki Komissiyasında aparılmış geniş, tam, hərtərəfli, obyektiv araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri, qeydə alınan digər namizədlər (sözügedən bələdiyyə üzrə liderlər siyahısında olmayan) tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

Bundan əlavə nəticələri mübahisələndirilən 2, 3, 8, 10 və 11 saylı seçki məntəqələrində 21 yanvar 2025-ci il tarixli 4/13 saylı “2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində seçki məntəqələrində veb-kameraların quraşdırılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı”na əsasən veb-kamera quraşdırılıb. İcraatın tərkib hissəsi olaraq veb-kamera görüntülərinə baxış keçirilib və hər hansı qanun pozuntusu müşahidə edilməmişdir.

Aparılmış icraatla müəyyən edilmişdir ki, 81 saylı İmişli seçki dairəsi dairə seçki komissiyası mövcud qərarla düzgün hüquqi nəticəyə gəlmiş, namizədlərin səsvermə günü baş verdiyi ehtimal edilən qanun pozuntuları ilə əlaqədar müraciətinə qanunla nəzərdə tutulmuş qaydada və müddətdə baxmış, o cümlədən maddi və prosesual huquq normalarını düzgün tətbiq etməklə əsaslandırılmış qərar qəbul etmişdir.

Beləliklə, İmişli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd M.Q.İsmayılovun müraciəti əsassız olduğundan təmin edilməməli və 81 saylı İmişli seçki dairəsi dairə seçki komissiyasının 7 fevral 2025-ci il tarixli 13/46 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a əsasən rəyə gəldim:

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 81 saylı İmişli seçki dairəsində İmişli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd İsmayılov Mehman Qadir oğlunun 8 fevral 2025-ci il tarixli 41 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 7 fevral 2025-ci il tarixli 13/46 saylı Qərarı dəyişdirilmədən saxlanılsın.
2. Rəy qəbul ediidiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü İlkin Şahbazov